Tarix və onun problemləri, №1-2 2009

**LÜTFULLAH TAĞIZADƏ**
***Bakı Dövlət Universitetinin aspirantı***

# OSMANLI DÖVLƏTİNİN YARANMASI VƏ SÜQUTU

Osmnlı* ən böyük və geniş islam dövləti kimi Abbasilər xilafətinin süqutundan sonra tanınır. Bu dövlət hicrinin VII və VIII-ci yüzilliklərində (miladi ilə XIII-XIV) Anadolu ərazisində meydana gəldi. XIV yüzilliyin ikinci yarısında I Bayazidin (İldırım Bayazid) rəhbərliyi altında onun ərazisi Avropa qitəsində gözə çarpacaq qədər genişləndi və XV yüzilliyin ikinci yarısının əvvəllərində Konstantinopolu fəth etməklə Sultan II Məhəmmədin rəhbərliyi altında (Fateh) Şərqi Roma imperiyasının yeganə varisinin mövqeyini (Bizansın) tutdu. Beləliklə, XV yüzilliyin sonunda Osmanlı dövləti özünün ən qüdrətli və çiçəklənmə mərhələsinə çatdı. Bir əsrdən artıq davam edən qüdrət və çiçəklənmə dövrü.

Bu dövrdə Osmanlı dövləti yalnız ərazi genişliyi və təbəələrinin çoxluğu, hərbi və siyasi qüdrət, ictimai nizam-intizam və dövlət sərvəti, millətin rifahı və səadəti baxımından birinci Avropa dövləti sayılmırdı, həm də miladinin XVI yüzilliyinin ortalarından etibarən özünü İslam xilafətinin rəsmi varisi və İslam dünyasının rəhbəri hesab edirdi. Bu dövrdə Osmanlı ərazisi Avropada Vena şəhərinin (Habisburq imperiyasının paytaxtı) yaxınlığına qədər uzanan, cənub ərazilərinin əsas hissəsini və Aralıq dənizi və Ərəbistan yarımadasını əhatə edən geniş bir dövlət idi. Şimaldan «Don» çayı və şərqdən İraq sərhədlərinə qədər uzanırdı. Qərbi avropalılar nöqteyi-nəzərindən bu dövlət İslam mədəniyyətinin ən mühüm nümunəsi hesab edilirdi və onunla mədəni, siyasi və hərbi əlaqələr və qarşıdurmalar qərblilərin İslamdan əldə etdikləri stimulun yaradılmasında əsas rola malik idi. (3, 11-23)

***Dövlət quruluşu.*** Ən yüksək mövqe, yəni osmanlı dövlətinin rəyasəti bu dövlətin ən nüfuzlu və birinci hərbi və siyasi komandanı olan sultana məxsus idi və ona türk dilində «ən böyük sultan» mənasını ifadə edən «xudavəndigar» və ya «xandigar» ləqəbi ilə müraciət edirdilər. Bəzən onun üçün fars ləqəbi «padşah» da istifadə edilirdi. Baya-

---

* Osmanlı sülaləsinin əcdadı İranın şimal-şərqində «Mahan» adlı kiçik ir nahiyədə hakimlik edən – hicrinin VI yüzilliyinin sonlarında (miladi XII) Qayi qəbiləsinin başçısı, Süleyman şah adlı bir şəxsdir. O, hicrinin VII yüzilliyinin sonlarında (miladi ilə XIII yüzillik) ölümdən xilas olmaq üçün qərbə qaçdı. Süleyman şah Fərat çayında boğuldu və ondan sonra qəbiləsi dağıldı. Onun övladlarından iki nəfər qəbilədən qalanları Xorasana qaytardılar və moğollara xidmət etməyə başladılar.

«Ərtoğrul» adlı oğlu qəbilənin bir hissəsini Anadoluya köçürtdü. Ərtoğrul Osmanlı sülaləsinin əcdadıdır. Moğollar öz hücumlarını İraq vasitəsilə Şərqi Anadoluya başlayanda Ərtoğrul moğollar və bizanslıların qarşısını almaq üçün öz qəbiləsindən 400 nəfərlə rum səlcuqlarına qoşuldu və Sultan Səlcuq bu xidmətin əvəzində Anadolunun sərhəd rayonlarından bir qisim torpaqları onlara verdi. Ərtoğrul öldükdən sonra (qəməri ilə təxminən 679/miladi ilə 1280) bu ərazi əvvəllərdən onun ixtiyarında olan qayi qəbiləsindən bir hissə ilə birlikdə oğlu Osmana qaldı.

«Uzun Çarışlı»nin yazdığına görə, osmanlılar əslində türk tayfasından biri olan «oğuzların» başçıları idilər. Oğuzlar 24 tayfaya bölünürdülər. Bu tayfalardan biri Bəyat tayfası ilə yaxın olan Qayi tayfasıdır və onların hər ikisi «qunxan» tayfasına mənsubdur. Qayi «güclü və qüdrət sahibi», Bəyat isə «zəngin, varlı» mənasını ifadə edir.

Miladi ilə IX yüzillikdən sonra qayilər səlcuqlarla birlikdə İrana daxil oldular və Xorasan rayonlarında məskunlaşdılar və sonra moğolların yürüşü nəticəsində Xarəzmşah qüvvələri ilə birlikdə Azərbaycan və Şərqi Anadoluya köçdülər. Onlardan bir qismi Ərtoğrulun sərkərdəliyi ilə osmanlı əmirliyini yaratdı. (4, 111-125)

Osman bəy (qəməri 725-miladi 1324 vəfat etmişdir) Ərtoğrulun kiçik oğludur. O, I Osman Qazi Osmanlı dövlətinin banisi kimi tanındı.

O dövrdə, mövcud sənədlərə əsasən, müsəlman və ya xristian valideynlər rüşvət verirdilər ki, övladları doşirməne (ikisüdlü) olsun və bu məziyyət hesab edilirdi. Yəhudilər və ermənilər doşirmənedən azad idilər (4, s.205-206)

zid özü üçün «sultan» ləqəbini seçdi (Osmanlı dövlətinin quruluşunda müəyyən hissələr də vardı ki, əslində mərkəzi dövlətdən asılı deyildi, müstəqil idi, o cümlədən onların arasında dini azlıqlar, peşə və sənət adamları və bəzi müəssisə və heyətlərə işarə etmək olar. Bu işlər onu göstərir ki, Osmanlı sultanı mütləq hakimiyyətə malik deyildi. Bununla yanaşı, bütün şəhərlər daxili, maliyyə, islahat və polis işlərinin idarəsində geniş yerli imkanlara və üstünlüklərə malik idilər. (9)

***Divan.*** Divan geniş nazirlər məclisinin ixtiyarında idi və ilk Osmanlı sultanları özləri burada iştirak edir və rəhbərliyi öz öhdələrinə götürürdülər. Belə divana şah divanı deyirdilər. Bu adət Sultan Süleyman Qanuninin iclaslarda iştirak etməkdən imtina etdiyi və divanın rəhbərliyini sədri-əzəmə həvalə etdiyi vaxta qədər davam etdi. Ondan sonra divan onun rəhbəri (sədri), sədri-əzəm, nazirlər, dövlətin rüknləri adlandırılan qazilər, valilər, dəftərdar, admiral, nişançıdan ibarət yüksək rütbəli məmurlardan təşkil olunurdu. (6)

***İdarəetmə üsulu.*** Osmanlı Sultanı Konyada olanda qayda belə idi ki, ərazi əmirlərə onların xidmətləri müqabilində verilirdi. Onlar da bu yolla torpaqları öz qəbiləsinin cihad səhnəsində canfəşanlıq edən övladlarından bəziləri arasında bölürdü, iqta (töyül) ilə onlara həvalə edilirdi. Bu hərbi iqtalar səncəq – bayraq mənasını ifadə edən «sənaceq»in cəmi – adlandırılırdı. (8)

Osmanlı dövlətinin coğrafi mövqeyinin genişlənməsi ilə çoxlu əyalətlərə və vilayətlərə inzibati və hərbi bölgü başlandı. Belə ki, XVII əsrin sonunda onların sayı 32 vilayətə çatırdı. Hər vilayət «səncəq» və ya «ləva», hakimi «səncəq bəy» və ya «əmirolləva» adlanan daha kiçik bölgələrə bölündü. Qeyd edildiyi kimi, «səncəq» sözü türk dilində bayraq mənasını ifadə edirdi və sonralar bu söz səncəq bəyin idarə etdiyi iqtaya deyilirdi. (5, 41)

***Maliyyə sistemi.*** Osmanlı dövlətində çox mühüm sistemlərdən biri, işi dövlətin maliyyə məsələlərinin, yəni gəliri və xəzinəsini yoxlamaqdan ibarət olan bir təşkilat idi və onu «dəftərdariyyə» (buxalteriya) adlandırırdılar. Bu təşkilatın məsul dəftərdarı (buxalteri) həmişə sədriəzəmlə birlikdə idi və işi ərazini qeydə almaq və iqtaları paylamaqdan ibarət idi.

Əvvəllər iki dəftərdar (buxalter) var idi: biri Anadoluda və o biri Osmanlı ölkəsinin Avropa hissəsini təşkil edən Rumlidə idi. Süleyman Qanuninin hakimiyyətinin sonunda bir dəftərdar da Şam və İraq şəhərləri üçün Hələb mərkəzliyində təyin edildi və onu ərəb və əcəm dəftərdarı adlandırırdılar. Ondan sonra maliyyə işləri genişləndiyindən hər bir vilayət üçün bir dəftərdar müəyyən edildi. (5, 43)

***İctimai quruluş.*** Osmanlı dövlətində iki təbəqə mövcud idi: hakim və rəiyyət təbəqələri. Birinci təbəqəyə istehsalla məşğul olmayaq və vergi ödəməyən inzibati işçilər, silahlı qüvvələr və alimlər daxil idi. Lakin ikinci təbəqə bu işlərin hər ikisini yerinə yetirirdi. Dövlət də şəxslərin təbəqələşmə çərçivəsini dəstəkləməklə onu özünün əsas hərbi, ictimai-siyasi vəzifələrindən biri və cəmiyyətin nizam-intizamı hesab edirdi. (9)

Osmanlı dövlətində ərazinin böyük hissəsi əmirlik və ya dövlət ərazisi idi ki, onlardan bir hissəsi iqta (töyül) şəklində verilmişdi. Digər hissəsi isə üzərində işləyən və pul ödəyənlərin ixtiyarında idi. İqtalar da gəlirin növünə görə bir neçə qismə ayrılırdı:

1)»Timar» adlanan və gəliri 20 min axçadan (Osmanlıda ən kiçik pul vahidi) çox olmayan kiçik iqta. Bu iqta sahibini timarçı adlandırırdılar.

2)Gəliri deyilən miqdardan çox olan və sahibi «zəim» (rəhbər, mülkədar) adlandırılan «ziyamət» (rəhbərlik) iqtası;

3)Həcminə görə ən yüksək və gəliri yüz min axça olan və adətən hakim sülaləyə mənsub olan şəxslərə verilən xüsusi iqta. İqta sahibi bütün ömrü boyu həmin torpaq-

dan faydalanırdı. Osmanlı sultanının özü də Osmanlı ərazisinin nahiyələrindən çoxunda torpaq sahibi idi. (2, 100-105)

Dövlət əsgər iqtalarına əhəmiyyətinə görə xüsusi diqqət ayırırdı. Bu qəbildən olan iqtalar, bir tərəfdən torpağın əkilməsini təmin edir, digər tərəfdən müharibə zamanı dövlətə süvari ordudan, onlara əlavə pul ödəmədən fayda gətirirdi.

***Ordu sistemi.*** Osmanlı qoşunu və ordusu dövlətin tarixində çox yüksək və əhəmiyyətli mövqeyə malik olmuşdur və hakimiyyət və müharibə üçün əsas vasitə idi. Çünki Osmanlı hakimiyyəti hər şeydən əvvəl hərbi hakimiyyət idi və dövlətin ən yüksək vəzifəli işçiləri eyni zamanda ordu başçıları idilər. Bununla bağlı belə bir fikir geniş yayılmışdı: «Osmanlı hakimiyyəti və Osmanlı ordusu bir sikkənin iki üzüdür». Osmanlı ordusunun əsasını bu dövlətdə ən qədim ordu növü olan süvarilər təşkil edirdi.

Ordunun artımı və qüdrətlənməsi üçün əsir xristianların övladlarına da həmin qoşunun sıralarında yer verilir, onlar yaxşı təlim alırdılar ki, müsəlman ordusunun sıralarına daxil olsunlar və təəssüb və ləyaqətlə sultana xidmət etsinlər. (5, 47) XV-XVI yüzilliklərdə katolik və ya qeyri-katolik olmasından asılı olmayaraq Avropa xristianları arasında islama meyl gücləndi və bu növ müsəlmanlar yalnız bir müsəlmanın bütün hüquqlarından faydalanmırdı, həm də doşirmənə* qaydası ilə Osmanlı dövlətinin siyasi quruluşuna sürətlə cəlb edilirdi.

Tarixçilər Süleyman Qanuninin ölümünü (qəməri 20 səfər 974/miladi 5 sentyabr 1566) Osmanlı tarixində dönüş nöqtəsi və bu dövlətin tədricən süqutunun başlandığı dövr hesab edirlər. Həqiqətdə bu süqut miladi ilə XVI yüzilliyin sonlarında, Süleymanın ölümündən sonra baş verib, XVII yüzilliyin ortalarından sürətlənsə də, onun ictimai bünövrəsi süleyman hakimiyyəti dövründə və Osmanlı dövlətinin çiçəklənmə çağlarında qoyulmuşdu. Osmanlı dövlətinin süqut xətti Qərbi Avropada baş qaldırmış yeni bir mədəniyyətin gündən-günə zühuru və yüksəlməsi ilə paralel inkişaf edirdi. Bu iki paralel inkişaf edən dəyişikliklər son yüzillikləri ərzində bəşəriyyətin taleyini yazan və nəhayət, miladi ilə XX yüzilliyin sonlarında dünyanın indiki siyasi coğrafiyasını yaradan böyük bir hadisənin mühüm hissəsini formalaşdırdı.

Osmanlının süqut etmə səbəblərini izah edərkən əsasən aşağıdakı amillərə diqqət yetirmək lazımdır:

1)cəmiyyətin artması və onun nəticələri.

Osmanlı cəmiyyəti XVI əsr ərzində iki dəfə artmışdı və bu artım kənd təsərrüfatının ərazi əkinin alt səviyyəsinə görə aparılırdı. Cəmiyyətin bu artımı taun xəstəliyinin azalması ilə güclənirdi.

Osmanlı hərbi qüdrətinin zirvəsində olan Süleyman Qanuninin dövründə «Yəngi çeriklərin» (yəniçarların) sayı 12000 nəfər idi və III Muradın dövründə onların sayı iki dəfədən artıq oldu və 27 min nəfərə çatdı. III Məhəmmədin dövründə onların sayı 45 min nəfər, I Əhmədin dövründə 47 min nəfər, İbrahimin hakimiyyətinin sonunda təxminən 50 min nəfər, IV Muradın dövründə isə bütün Osmanlı hərbi qüvvələrinin sayı

---

* (doşirmənə – əslində beşdə bir (xüms) mənasındadır. Bu anlayış yenicə islamı qəbul etmiş xristian ailələrinə mənsub ən yaxşı cavanları seçmək, hərbi və dövlət vəzifələrində rəhbərlik etmək məqsədilə onların təlim-tərbiyəsi üçün yaradılmış bir quruluşa aid edilir. Bu sistem Birinci Bayazidin dövründən başlanmış və II Murad və II Məhəmmədin dövründə geniş tətbiq edilmişdir. Doşirməne məcburi sistem deyildi, əksinə Osmanlının bu rəhbər seçmə sistemi VII əsrdə ləğv edildi və doşirmənələr rəqib və mühacim cinahlara bölündü. Doşirməne rəhbərləri arasında yayılmış özbaşınalıq və əxlaqsızlığa qarşı etiraz Cəlali üsyanlarının yaranma səbəblərindən biri idi. II Osman doşirməne rəhbərlərinin nüfuzu ilə mübarizəyə başladı və onların yerinə Anadolu türklərindən yeni rəhbərlər seçməyə çalışdı. Buna görə «Estanford şav» – onu türkçü hərəkatların öndəri hesab edir və üç yüz il sonra Mustafa Kamal Paşa (Atatürk) onun bayraqdarı oldu.

200 min nəfər qeydə alınmışdı. 1650-ci ildə «Yəngi çeriklərinin» illik məvacibi təxminən 800 min quruş idi ki, bu da 768 min funtsterlinqə bərabər idi.*

Tərxunçi Əhməd Paşa, öz sözlərinə görə, (1652) yəngi çeriklərin sayını 50 min nəfər və hərbçilərinin (qopuqlu ordu süvariləri) sayını isə 25900 nəfərə çatdırmışdı.*

Burada fundamentalistlərin bu sualı müzakirə olunur ki, nə üçün Qərbi Avropada «cəmiyyətin partlayışı» bu məntəqələrin genişlənməsində mühüm amilə çevrilmiş və Qərbin yeni mədəniyyətinin meydana gəlməsinin əsasını təşkil etmiş, lakin Osmanlıya əks təsir göstərmişdir. Bu suala cavab verməк üçün iki amili nəzərə almaq lazımdır: Birincisi, Osmanlıya əks olaraq XVI-XVII əsrlərdə Qərbi Avropada elə cəmiyyət artımı yox idi ki, insan qüvvəsi ilə istehsal vasitələri arasındakı (əsasən kənd təsərrüfatı ərazisi) tarazlığı pozsun. İngiltərə cəmiyyəti hətta XVIII əsrin sonuna qədər ləng inkişaf edirdi və 4/7 milyon nəfərdən XV əsrin sonunda 5/5 milyon nəfərdən daha az, ildə 1700-ə çatdı. Yalnız XIX əsrdə bu ölkə «cəmiyyət partlayışı» hadisəsi ilə qarşılaşdı. (7, 256)

Fransa da həmin vəziyyətdə idi və 1553-cü ildə Paris şəhərinin əhalisi 260 min nəfər idi ki, bu da XVIII əsrdə 509 minə çatdı. Almaniyada da XVII və XVIII əsrlərdə yalnız cəmiyyət artımı deyil, həm də qıtlıq və yoluxucu xəstəliklər və ya müharibə nəticəsində insanlar tələf olurdu və bu dövrdə kəndlərin əhalisi 40 faiz və şəhərlərin əhalisi 33 faiz azalmışdı.

İkincisi, Avropa müstəmləkəçiliyi XVI əsrinin əvvəllərindən Amerika qitəsinə hücumunu başladı və bu yüzilliyin birinci yarısında bu qızıl və böyük ərazi, onun adalarının 12-dən 15 milyona qədər sakinini soyqırıma uğratdı.(7, 118) Ondan sonra Avropa müstəmləkə qüdrətləri üçün təbii və mədən mənbələri və əkinçilərin ərazi məhdudiyyəti kimi maneə mövcud deyildi, əksinə insan qüvvəsinin azlığı, Afrika qitəsinin yerli sakinlərinin ovlanması və «qul» dünya ticarətinin meydana gəlməsi və onun ardınca «plantaçılıq» iqtisadiyyatının yaranması və inkişafına səbəb oldu. Bu dəyişiklik sonrakı yüzilliklər ərzində Qərbi Avropaya sonsuz sərvət gətirdi. (7, 215-219)

2)Qərbi Avropanın Amerika qitəsində ağalığı.

Osmanlının süqut səbəblərini araşdırarkən nəzərə alınmalı ikinci amil XVI yüzilliyin sonlarından Amerika qitəsindən Qərbi Avropaya sərvət axınının göstərdiyi böyük təsirdir. Hasburq sülaləsi, İspaniya səltənətini və onun Amerika qitəsində geniş müstəmləkələrini də ələ keçirmiş V Karlın dövründən tədricən bu sonsuz sərvət Osmanlıya qarşı müharibə və intriqalar üçün güclü maliyyə dəstəyinə çevrildi. V Karlın istibdadçı hakimiyyəti və qanlı müharibələrinin ağır xərclərinin böyük hissəsini Amerikanın qızıl və gümüşü ödəyirdi. Britanikanın yazdığına görə, yalnız 1550-ci ildə 17 gəmi Amerikadan onun üçün 3 milyon sikkə iki kat qızıl gətirdi.(7, 24)

Dünya bazarlarında olan Amerika qitəsinin gümüş axını içərisində Osmanlı gümüş sikkəsinin dəyərinin azalması Osmanlı maliyyə vəziyyətinə böyük və sarsıdıcı təsirlər göstərmişdir.

Amerika qitəsinin plantalarında əkilən və Osmanlı əhalisi içrəisində çox istifadə olunan yeni malların daxil olması Osmanlı nəqd vəsaitinin böyük bir həcminin 1605-ci ildə şəkər və qəhvə və tənbəki kimi qərbə axın etməsinə səbəb oldu. (7, 341-342)

* Hamer Proqştalın «Osmanlı imperiyasının tarixi» əsəri Osmanlı tarixi sahəsində ən mühüm və mötəbər Avropa mənbələrindən hesab edilir və bu əsər bir çox diplomatik sənəd və xronikalara əsaslanmışdır. Bu qiymətli əsər Nasiri dövründə fransız mətni əsasında tərtib edilmiş ıə qəməri ilə 1313-cü ilin rəbiül-əvvəl ayında başa çatmışdır.

* Tərxunçi Əhməd Paşanın hərbçilərinin sayını 2590 nəfər və yəngi çeriklərin sayını 50 min nəfər etməsi fikri yanlışdır və onun hərbçilərinin sayı 25900 olmalıdır. Həmin yerdə qeyd edilmişdir ki, əgər «Qara Murad Paşayi» sədri-əzəm öz sözünə əməl etmək istəsəydi və xaric olunanları yenidən orlduya qaytarsaydı, hərbçilərin sayı 50 min nəfər və yəngi çeriklərin sayı 80 minə çatardı.

Osmanlının sıx bazarının müstəmləkə mallarının, xüsusilə tənbəki və qəhvənin üzünə açılması, onun əhali arasında sərf olunmasının genişlənməsini qəti olaraq Osmanlıya müraciət etmiş yəhudi tarcirləri və «Mendes» vətən dünya şirkətinə aid etmək lazımdır. (7, 166-167)

3)Qərbin şərqlə ticarətinin dəniz yolunun açılması.

Vil Dürant: Hindistanın Misir-Aralıq dənizi yolunun dəniz marşrutuna çevrilməsi və Avropanın Amerika ilə ticarətinin genişlənməsi Atlantik ölkələrin zəngin və İtaliyanı kasıb etdi. Tədricən Mediterane millətləri tənəzzülə üz tutdu, çünki insanlar və mallar səfər yolundan kənarda idilər, Amerikanın qızıl və ticarəti ilə varlı olan Atlantik millətləri irəli keçdilər. Bu ticarət yolllarında bir inqilab idi. (7, 53)

Bu təhlil Aralıq dənizi hövzəsinin ən mühüm dövləti və miladi XIV-XV yüzilliklər ərzində şərq və qərbin ticarət dövlətlərindən hesab edilən osmanlılar barədə də təsdiq olunur. Avropa qərbinin şərqlə ticarət dəniz yolunun açılması Osmanlı ticari gəlirlərinin azalmasına səbəb oldu.

4)Qərbin «Osmanlı təhlükəsi» ilə hərbi və informasiya qarşıdurması. Qərb hökmranlığı «I Bayazidin» Avropa qitəsi torpaqlarına hücumundan və Nikopolis müharibəsində (qəməri ili ilə 21-ci hiccə 798-ci il/ miladi ilə 25 sentyabr 1396-cı il) məğlubiyyət Osmanlı adlı «təhlükəni» öz vücudunun dərinliklərində hiss etdilər və o dövrdən qüdrətli düşməni Avropanın mərkəz və qərbinə hərəkət etməkdən yayındırmaq və onu zəifləlmək və məhv etmək üçün səylər və təlaş onların daimi narahatlığına çevrildi və ingilis şərqşünası Losterinin təbirincə: nəhayət Avropanı oyatdı.

Sonralar II Murad və II Məhəmmədin (Sultan Məhəmməd Fateh) dövründə bu təhlükə yenə baş qaldırdı. Konstantinopolun fəthi (hicri qəməri ilə 20 cəmadioləvvəl 857-ci il/miladi ilə 29 may 1453-cü il) bu prosesin yüksək mərhələsidir. Bu təhlükəyə misal olaraq aşağıdakı hadisələri gətirmək olar: Əmir Teymur Qorqaninin yürüş istiqaməti və səmtinin şərqdən qərbə doğru dəyişməsi və I Bayazidin müharibəsi və onun öldürülməsi (1400-1403), Şeyx Bədrəddinin – Səmavən mənşəli əhalinin yəhudi hakimi – və onun yəhudi dostlarının Osmanlı dövlətinin çiçəklənmə dövründə I Sultan Məhəmmədin (Çələbi) əli ilə üsyanı, qərbin intriqaçı ocaqlarının Bizansın məhv edilmiş əmirlərinin iki damadı ilə Osmanlı əleyhinə (XV yüzilliyin ortası) ittifaqı – Ağqoyunlu Uzun Həsən və III İvan Moskvalı. (7, 273-276) Yeni səlib müharibəsi yaratmaq məqsədilə Osmanlı əleyhinə çıxmış Devid Rubney və Solomon Molxo və xristian dalğasının meydana gəlməsi.

Osmanlı hərəmxanası və sarayında nüfuz və Mustafa (1553) və Bayazid (1562), Süleyman Qanuninin böyük oğulları və İran əleyhinə müharibə yaradan suiqəsdçilərə qarşı olan İbrahim Paşa (1536) və Məhəmməd Sokoli (1579) kimi nazirlər, islahatçı və layiqli rəhbərlərə və şahzadələrə qarşı intriqa və onların qətli, /təxminən 20 min yəhudinin İberiya yarımadasından Osmanlı dövlətinə köçürülməsi (XV əsrin sonu və XVI əsrin əvvəli)*

5)siyasi quruluşda hərc-mərcliyin artması.

Osmanlıların siyasi və mədəni quruluşunun tənəzzülü iki amillə bağlıdır:

a)qüdrətli siyasi qurum kimi hərəmsarayın meydana gəlməsində, saray ləyaqəti qarşısında dağıdıcı üsul kimi saray qohumluğunun* rəvac tapması və şəxsi sərvət yığ-

* Hari Ucalu osmanlı sultanları və onların yəhudi təbəələri kitabında (1999 İstanbul), II Bayazidin dövründə Osmanlıya köçmüş yəhudilərin sayını 150 min nəfər qeyd edir. Bu rəqəm şişirdilmişdir: dedik ki, yəhudi mühacirlər 100 min nəfər idi və onlardan 20 mini Osmanlıya getmişdi.

* Neptism

maq üçün mənsəb və vəzifədən sui-istifadədə öz əksini tapmış siyasi quruluşun başında hərc-mərcliyin geniş vüsət alması.

Hamer Purqentel Rüstəm Paşanın hakimiyyət dövrünü (1543-1562) Osmanlı dövlətində maliyyə özbaşınalığının başlandığı dövr hesab edir və onun meydana gəlməsi və genişlənməsində yəhudilərin rolunu vurğulayırdı. /Rüstəm Paşa Osmanlı dövlətində rüşvət və peşkeş artımı yaymış və hökumət və vəzifəni satmağı adiləşdirən birinci sədriəzəm idi. (7, 305)

6)dini daşlaşma və siyasi düşüncənin tənəzzülü.

Bir tərəfdən dərviş (sufi-təsəvvüf əhli) təriqətlərinin genişlənməsi və qüdrəti, digər tərəfdən dini hüquqşünaslar içərisində savadsız və daşlaşmaya meylli qrupların meydana gəlməsi miladi XVII və XVIII yüzilliklərdə Osmanlıda böyük mədəni ziddiyyətlər əmələ gətirdi və bu da osmanlıların düşüncə və əqli tənəzzülündə çox effektli oldu. Ənənəvi çərçivədə – fiqh və ya ürfani – siyasi və ictimai düşüncə məhdudlaşdı, mütəfəkkirlər yeni hadisələr və dəyişikliklər qarşısında mühafizəkara və düşmənə çevrildilər və onlar islam mədəniyyətinin onun osmanlı formasında sarsılmaz üstünlüyünə elə inanırdılar ki, Qərbi Avropa xeyrinə baş verən tale dəyişikliklərini anlamırdılar. Bu daşlaşmanın ən bariz nümunəsini iqtidar dövrü 1630-cu ildən 1650-ci ilə qədərki dövrü ilə uyğun gələn «Qazizadə tərəfdarları»nın üçüncü qrupunun düşüncə və əməlində görmək olar.

Bu fiqh cəmiyyətin banisi Kiçik Qazizadə adı ilə məşhur olan Məhəmməd Əfəndi Qazizadə idi (qəməri 990-1045/miladi 1582-1635) və onun tərəfdarları qazizadələr adı ilə məşhur idi. Qazi tərəfdarları öz dini baxışlarını Məhmudiyyə təriqətinin kitabından, Osmanlı fiqh alimi, «Məhəmməd Əfəndi Birqivi» əsərindən götürürdülər.* Birqivi öz əqidəsində səmimi və bəyan etmədə qorxusuz idi. Lakin XVII yüzillikdə bu fikirlər bir qrup riyakar və hakimiyyət sevər fəqihlər üçün bəhanəyə çevrildi.

Qazizadə də İslam peyğəmbərinin dövründə yayılmamış adət, ənənələrin işlənməsini bidət və haram bilir və sufiləri İslam dinində ən pis bidətçilər hesab edirdi. O, IV Muradın tənbəki və qəhvənin istifadəsini qadağan etməsi haqqında fərmanını əldə əsas tutaraq tənbəkinin haram olunmasına əl atdı, fırlanma və ağlamağı şəriətə zidd elan etdi və bu fitvanı ardıcılları təəssüb və ciddiyyətlə davam etdirdilər. Qazizadənin ölümündən sonra onun ardıcılları böyük qüdrət əldə etdilər və İslam peyğəmbərindən sonra bidətlərə icazə verənlərə küfr edirdilər. (4, 459-467) Qazizadənin davamçıları dini müəssisə və idarələrin əksəriyyətində nəzarəti artırdılar və bu yolla böyük sərvət əldə etdilər və əldə edilmiş rüşvətlərin səxavətlə bölünməsi ilə öz iqtidarının əsasını möhkəmləndirə bildilər. Qazizadədən sonra bu qrupun rəhbərliyini əlinə alan ən cəsur və ən riyakar vaiz (4, 465) Şamdan olan «Ostovani Əfəndi» adı ilə məşhur olan bir şeyx idi.

7)Osmanlı dövlətinin süqutunda əsas və ikinci dərəcəli amillərin yeri: Osmanlı dövlətinin süqut etmə səbəblərinin araşdırılmasında birinci dörd amilin rolunu əsas hesab etmək lazımdır: artım və onun əkin ərazisi ilə qeyri-mütənasibliyi; qərblilərin ağalığının Avropa qitəsinə təsiri və «plantaçılığın» yeni iqtisadiyyatının meydana gəlməsi; qərbin şərqlə dəniz ticarət yolunun açılması; Osmanlı əleyhinə Avropa qüdrətlərinin informasiya və hərbi sahədə birləşməsi və dağıdıcı siyasəti. İki sonrakı amili ikinci dərəcəli hesab etmək lazımdır (siyasi quruluşda hərc-mərcliyin artması; dini və siyasi düşüncənin daşlaşması.

---

* Məhəmməd bin Birqiviyə (qəməri 928-981/miladi 1522-1573) «Birqili də deyilir. Hal-hazırda da Türkiyənin adi əhalisi arasında məşhur olan Osmanlı ruhani alimdir)

Əgər XVII yüzilliyin ortasında Osmanlıda İbrahim kimi qeyri-ciddi və əxlaqsız bir sultanla tanış olsaq, unutmayaq ki, XVIII əsrin II yarısında İngiltərədə də IV Corc kimi əxlaqsız və qeyri-ciddi və əyyaş padşah hökmranlıq edirdi. (7, 342-343)

Əlavə: münaqişəçi və ya inqilabçı Qazi Bədrəddin Səmavan.

Sultan Məhəmməd Çələbinin dövründə Osmanlı dövlətinə qarşı Səmavan şəhərinin (Yunanıstanın şimal-qərbində yerləşir) hakiminin oğlu Bədrəddin adlı bir şəxsin rəhbərliyi altında böyük üsyan qalxdı. Bu üsyan qəməri ilə 819-cu ildə /miladi ilə 1416-cı ildə baş verdi. Bu üsyan qətiyyətlə yatırıldı və Bədrəddin 18 dekabr 1416-cı ildə Mövlana Xəlilin fitvası ilə öldürüldü. Bədrəddin və üsyanın digər rəhbərləri əhalinin diqqətini cəlb etmək üçün zahirən müştərək sahiblik leyhinə şüarlar səsləndirirdilər. Bu hadisə üsyanın digər sütunlarına diqqət yetirmədən son dövrlərdə bəzi marksisit yazıçılar tərəfindən Bədrəddinin xalq inqilabçısı simasında qələmə verilməsinə səbəb oldu.

Klislinq, Münhen Universitetinin professoru yazır: Bədrəddin üsyanının «Rumluda» hətta Süleyman dövrünə qədər də tərəfdarlarının olduğunu göstərən sənədlər vardır. Qəhrəmanlarının ölümündən sonra onlardan bəziləri indiki siyasi nöqteyi-nəzərdən fəal olmuş səfəvi üsyanına qoşuldular, qalanları isə müxtəlif və çoxlu sayda təriqətlərə xüsusilə «Bektaşiyə»yə cəlb olundular. (1, 869)

## ƏDƏBİYYAT

1.Klissling H.J., Badr al-Din B.Kadi Samawan, The Encyclopedia od Islam, Vol. I
2.Lybyer A.N., The Government of Empire, p. 100-105.
3.Norman Daniel, Islam, Europe and Empire. Edinburgh: The university Press, 1966
4. اسماعيل حقى اوزون چارشلى، تاريخ عثمانى، ترجمه ايرج نوبخت، تهران، انتشارات كيهان، ۱۳۶۸، ج ۱
5. السيد رجب حراز، العالم العربى فى التاريخ الحديث
6. عبدالعزيز الشناوى، الدولة العثمانية دولة اسلامية مفترى عليه ۴ ج ، قاهره، ۱۹۸۰، ۱۹۷۲
7. عبدالله شهبازى، زرسالاران يهودى و پارسى، استعمار بريتانيا و ايران، ج۱
8. على حسون، تاريخ الدولة العثمانية، دمشق، ۱۹۸۰
9. كارل بروكلمان، الاتراک العثمانيون
10. كارل بروكلمان، تاريخ الشعوب الاسلامية، ترجمهٔ نبيه امين فارس، منير البعلبكى، بير.ن، ۱۹۷۷

**ЛУТФУЛЛАХ ТАГИЗАДЕ**
***аспирант БГУ***

**ФОРМИРОВАНИЕ И РАСПАД ОСМАНСКОЙ ИМПЕРИИ**

В статье автор дает краткий обзор формирования и распада Османской империи. Он также рассматривает и описывает государственный строй, управление, финансовую систему, социальной структуры этого государства.

**LUTFULLAH TAGHIZADA**
***Postgraduate of BSU***

**THE FORMATION AND DISINTEGRATION OF OTTOMAN EMPIRE**

In the article the author gives the brief description of the formation and disintegration of the Ottoman empire. He also looks through the state structure, financial system, army, social structure of the ottoman empire.

***Rəyçilər: t.e.n. S.Ruintən, t.e.d.İ.M.Məmmədov.***

***BDU-nun Tarix fakültəsi Türk və Qafqaz xalqları tarixi kafedrasının 03 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***